# XXI əsrin Naxçıvanı

***Bir vaxtlar öz əzəmətli keçmişini yalnız tarixi abidələri ilə xatırladan Naxçıvan bu gün çoxlarının böyük təəccüb hissi ilə qarşıladığı bir məkana çevrilmişdir. Hər bir küçəsinin, hər bir binasının zərif görünüşü ilə könülləri ovsunlayan bu diyar tarixini qorumaqla bərabər, müasirliyi ilə də diqqəti cəlb edir. Muxtar respublikamız bütün sahələrdə irəliləyişlərə nail olaraq günü-gündən dəyişir, yeni inkişafa qovuşur. Müxtəlif tarixi və mədəni abidələrin bərpası, müasir dövrün yeni abidələrinin inşası, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, bir sözlə, Naxçıvanın özünü yenidən "Nəqşi-cahan" olaraq tanıtması hər birimiz üçün böyük fəxrdir.***

Bu gün Naxçıvan, əhalisinin firavan həyat sürdüyü, gələcəyini böyük ümidlərlə qurmağa çalışdığı bir məkandır. 1995-ci ildən sonra Naxçıvan Muxtar Respublikasında böyük quruculuq proqramı gerçəkləşdirilmiş, muxtar respublika yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur. Naxçıvan Muxtar Respublikasında son 16 ildə aparılan genişmiqyaslı quruculuq tədbirləri, regionun iqtisadi inkişafı adilikdən uzaq, möcüzəyə bənzər həqiqətdir. Bu gün Naxçıvanda hansı sahəyə baxsaq, orada geniş islahatların aparıldığının şahidi olarıq. Naxçıvanın inkişafdan intibaha qovuşması düzgün idarəetmənin nəticəsi, Vətən sevgisinin, yurd sahibliyinin misilsiz nümunəsidir. Muxtar respublikanın bugünkü yüksəlişi 5 min illik tarix boyu yaradılan intibahların ən uca zirvəsində dayanır. Sənayedə, tikintidə, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar ona görə qazanılır ki, ulu öndərimizin yolu sədaqətlə davam etdirilir. Bu həqiqətin fövqündə yenidənqurmadan yeniləşmə müstəvisinə qədəm qoyan Naxçıvan görünür.

Muxtar respublikadakı yeniləşmə və intibahda elm, təhsil və mədəniyyətin xüsusi çəkisi vardır. Müasir səviyyədə olan elm və təhsil quruculuğu regionda yeniləşmənin əsas hərəkətverici qüvvəsi kimi qəbul olunur. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərində – Tividə, Yuxarı Qışlaqda, Havuşda, Ərəfsədə, Nəhəcirdə, Şadada və onlarla belə yaşayış məntəqələrində müasir tələblərə cavab verən məktəb binaları fəaliyyət göstərir. Naxçıvanın ən ucqar dağ kəndində təhsil alan məktəbli Avropanın mərkəzindəki inkişaf etmiş ölkələrin gəncləri kimi kompyuterdən və internetdən sərbəst şəkildə istifadə etmək imkanına malikdir.

Muxtar respublikanın ən ucqar dağ kəndlərinin sakinləri də keyfiyyətli tibbi xidmətlə təmin olunurlar. Regionda istifadəyə verilən səhiyyə müəssisələrində dünyanın ən müasir tibbi avadanlıqları quraşdırılmışdır. Əgər bu gün ən çətin cərrahiyyə əməliyyatı hesab olunan açıq ürək əməliyyatı muxtar respublikada həyata keçirilirsə, Naxçıvan səhiyyəsinin inkişafı barədə əlavə fikir söyləməyə ehtiyac yoxdur.

Muxtar respublikanın gələcəyinə göstərilən böyük qayğının bir ifadəsi də burada yaşıllıq sahələrinin artırılmasıdır. Son 16 ildə muxtar respublikanın ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 10 min hektardan çox yaşıllıqlar salınmışdır. Hazırda muxtar respublikanın ümumi ərazisinin 7,8 faizini yaşıllıqlar əhatə edir. 1990-cı ilin əvvəllərində bu göstərici 0,6 faiz həddində olmuşdur.

Bir sıra əsas göstəricilər baxımından son 16 il ərzində yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar muxtar respublikamızın yarandığı 1924-cü ildən 1995-ci ilədək, yəni 70 ildən artıq bir dövrdə əldə olunanları xeyli üstələyir. Təkcə 2011-ci ilin uğurları regionun sosial-iqtisadi inkişafı barədə aydın təsəvvür yaradır. Ötən il Ümumi Daxili Məhsulun həcmi 1 milyard 786 milyon 341 min 600 manata çatmışdır. Əhalinin gəlirləri bir il öncəyə nisbətdə 43,5 faiz artaraq 1 milyard 445 milyon 748 min manatdan çox olmuşdur. İnsanların yaşayış səviyyəsinin yüksəldiyinin göstəricisidir ki, təkcə 2011-ci ildə əhalinin şəxsi vəsaiti hesabına

ümum
sahəs
maqlа
Mı
şəhər
kəndl
işləri
yanaş
rilmiş
So
kasınd
inkişa
Xüsus
regioı
ona a
Zavo
"Cah
lərind
istehs
seçili
respu
fəaliy
sənay
nəticə
mış, I
komp
qabaq
1995-
oluna
simuı
il ərz
məhs
İn
naqla
gözlə
dəyiş
özləri
bilmi
rünər
yanaı
həyat
min l
laşdıı
naxçı
Aralı
cəyin
yüksə

qəbul olunur.
n ucqar dağ
ışlaqda, Ha-
ıdada və on-
ində müasir
binaları fəa-
ı ucqar dağ
i Avropanın
lərin gəncləri
tdən sərbəst
a malikdir.
ar dağ kənd-
bbi xidmətlə
ıdəyə verilən
ın ən müasir
nışdır. Əgər
iyyatı hesab
ıxtar respub-
çıvan səhiy-
ir söyləməyə

inə göstərilən
ırada yaşıllıq
6 ildə muxtar
dövlət struk-
ektardan çox
ı muxtar res-
,8 faizini ya-
əvvəllərində
olmuşdur.
ımından son
ıdi potensial
publikamızın
i ilədək, yeni
lə olunanları
ilin uğurları
barədə aydın
numi Daxili
6 milyon 341
linin gəlirləri
faiz artaraq
ın manatdan
ış səviyyəsi -
dir ki, təkcə
aiti hesabına

ümumilikdə 339 min 468 kvadratmetr yaşayış sahəsi (yaşayış evlərinin təmiri istisna olmaqla) istifadəyə verilmişdir.

Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə aparılan geniş tikinti-quraşdırma işləri bölgənin simasını gözəlləşdirməklə yanaşı, onun inkişafının təcəssümünə çevrilmişdir.

Son 16 ildə Naxçıvan Muxtar Respublikasında müasir sənayeləşmə və özəl sektorun inkişaf etdirilməsi də ön plana çəkilmişdir. Xüsusi zövqlə tikilmiş yeni sənaye obyektləri regionun memarlıq üslubunu tamamlayır, ona ayrı bir yaraşıq verir. Naxçıvan Avtomobil Zavodu, Sement Zavodu, "Gəmiqaya" və "Cahan" şirkətlər qruplarının istehsal sahələrində və bu kimi yüzlərlə müəssisələrdə istehsal olunan məhsullar öz keyfiyyəti ilə seçilir. 1924-1995-ci illər ərzində muxtar respublikada cəmi 56 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Ötən 16 il ərzində isə sənaye sahəsində aparılan uğurlu islahatların nəticəsi olaraq 373 yeni müəssisə işə başlamış, Naxçıvan aqrar regiondan aqrar-sənaye kompleksinin yüksək səviyyədə inkişaf etdiyi qabaqcıl regiona çevrilmişdir. Əgər 1924-1995-ci illərdə muxtar respublikada istehsal olunan sənaye məhsullarının sayı üzrə maksimum göstərici 28-ə bərabər idisə, ötən 16 il ərzində əlavə olaraq 215 yeni sənaye məhsulunun istehsalına başlanmışdır.

İndi regionumuza tez-tez səfər edən qonaqlar Naxçıvanda gedən dəyişikliklərə görə gözlərinə inanmırlar. Naxçıvan elə sürətlə dəyişir ki, bəzən muxtar respublika sakinləri özləri də dünən keçdiyi küçəni bu gün tanıya bilmir. 16 il bundan öncə möcüzə kimi görünən sərhəd kəndində belə şölələnən mavi yanacaq, 24 saat elektrik təminatı indi adi həyat reallığına çevrilmişdir. Bir vaxtlar min bir əziyyət çəksə də, güzəranını yaxşılaşdıra bilməyən, buna görə xaricə üz tutan naxçıvanlı mühəndis bu gün yay tətilini Aralıq dənizi ölkələrinin hansında keçirəcəyini planlaşdırmaq üçün evində oturub yüksək sürətli internet vasitəsilə qonşu binadakı həkim dostuna, ya da xaricdəki turoperatora videozəng edir. Yaxud bir vaxtlar ölkənin paytaxtında çətinliklə məqalə dərc etdirən gənc naxçıvanlı universitet müəllimlərinin səsi indi Sankt-Peterburqun, İstanbulun, Tokionun, Los-Ancelosun konfrans salonlarından gəlir. Əvvəllər lüks əşyalara xarici teleseriallarda baxıb həsəd aparan naxçıvanlı xanımlar onları rahatlıqla evinə sifariş verir, ad günlərində rəfiqələrinə hədiyyə edirlər. İyirmi il əvvəl Bakıda təhsil alan övladı ilə məktublaşan naxçıvanlı ata indi istədiyi mobil operatorun 3G servisi ilə görüntülü danışa bilir. Bu gün naxçıvanlılar ümumən regionda çox az-az təsadüf edilən lüks evlər tikir, ən bahalı avtomobilləri alıb muxtar respublikaya gətirirlər. Naxçıvanda uşaqdan-böyüyə hər kəsin geyim-kecimi də qabaqcıl Avropa ölkələrindən geri qalmır.

Yalnız bir sahədə jurnalist araşdırması apardıq. Öyrəndik ki, Naxçıvan şəhərindəki Mebel salonlarında, elektrik avadanlıqları satılan mağazalarda alınmayan ucuz əşyalardır. Ona görə də sahibkarlar daha müasir əşyalar gətirməyə və istehsal etməyə meyil göstərirlər. Bəli, naxçıvanlıların yaşayış tərzi belədir. İnsanların maddi-rifah halının yaxşılaşdırıldığını göstərən belə nümunələrin siyahısını istənilən qədər genişləndirə bilərik.

Bu gün saydıqca bitməyən uğurların, inkişaf və tərəqqinin məskənidir Naxçıvan. Öz əzəmətini, möhtəşəmliyini qoruyub saxlaya bilən, qədimliyini olduğu kimi dünyaya çatdıran bir diyardır. Yenə məğrur, yenə qürurlu, yenə əyilməzdir. Geridə qoyduğu çətin sınaqlar onun üçün sonu xoşbəxtliklə bitən qəhrəmanlıq nağılıdır.

*Yenə "Xatirələr"ə qayıdırıq – bir zamanlar Məmməd Cəfər Cəfərovun yazdığı, qələmi ilə titrətdiyi sətirlərə. Təəssüflənməyə bilmirik. Gerçəkləşməyəcək arzumuz dilə gəlir: – Kaş sağ olardı böyük ədib, kaş bizim kimi o da görərdi bu firavan həyatı, Naxçıvanın bugünkü inkişafını, yüksəlişini. Yeni xatirələrə qucaq açardı yazdığı kitablar...*

**Tural SƏFƏROV**

## iqtisadi dövriyyədə

naşı, digər üsullarla əldə olunan
rbon qazından daha təmiz və key-
yətli olan Darıdağ karbon qazı

Hazırda muxtar respublikanın maye karbon qazına olan illik tələbatı 2800 tondur. İllik istehsal gücü 6300 ton maye karbon qazı və 50

olunan məhsulun vaxtlı-vaxtında sifarişçilərin ünvanlarına çatdırılmasına əlverişli şərait yaradır. Maye karbon qazı 6 kiloqramdan 25 ki-